## Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Valideynlərini itirmiş və valideyn himayəsindən, məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və digər aidiyyəti nazirlik və təşkilatları dövlət himayəsində olan və olmayan, qəyyumluqda, himayədə olan, övladlığa verilən, habelə rəsmiləşdirilmədən yaxın qohumunun (baba, nənə, əmi, dayı, bibi, xala və s.) yanında yaşayıb tərbiyə olunan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi üçün Qanunda nəzərdə tutulmuş güzəşt və imtiyazların həyata keçirilməsi ilə bağlı lazımi təşkilati tədbirlər görsünlər.

2. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsini yaxşılaşdırmaq məqsədilə:

valideynlərini itirmiş və valideyn “himayəsindən məhrum olmuş uşaqlar arasından olan şəxslərə dövlət ali*, orta ixtisas və peşə* təhsili müəssisələrində*, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında (bundan sonra - AMEA)* təhsil aldıqları müddət ərzində dərslik və dərs ləvazimatları alınması təhsil aldığı müəssisənin *və ya AMEA-nın* vəsaiti hesabına təmin edilsin və yaxud həmin dərslik və dərs ləvazimatları əvəzinə *50* manat müavinət verilsin;[1]

valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər dövlət, *ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrini və AMEA-nı* bitirdikləri zaman Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, *valideynlərini itirmiş* və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin geyim, ayaqqabı və yumşaq inventarlarla təmin olunması norması haqqında” 1994-cü il 17 yanvar tarixli 15 nömrəli qərarına uyğun olaraq, müvafiq *təhsil müəssisəsinin və ya AMEA-nın* xərclər smetası hesabına *265 manat məbləğində* mövsümü paltar və ayaqqabı, habelə respublika üzrə orta aylıq əmək haqqının 2 mislindən az olmamaqla birdəfəlik pul vəsaiti ilə təmin olunsunlar;[2]

valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar ilk dəfə işə düzələn zaman Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinin “Təhsil xərcləri” bölməsində Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılmış vəsait hesabına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli 15 nömrəli qərarında nəzərdə tutulmuş normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqla, habelə respublika üzrə orta aylıq əmək haqqının beş mislindən az olmayan miqdarda birdəfəlik müavinətlə təmin olunsunlar.

3. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin “Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqların təlim-tərbiyəsinin və maddi vəziyyətinin əsaslı yaxşılaşdırılması tədbirləri haqqında” 1987-ci il 13 oktyabr tarixli 371 nömrəli, habelə Azərbaycan SSR Nazirlər Sovetinin “Dövlət himayəsində olmayan yetim uşaqlara və valideyn himayəsindən məhrum uşaqlara kömək göstərilməsi tədbirləri haqqında” 1990-cı il 28 avqust tarixli 390 nömrəli qərarları və “Azərbaycan Respublikası internat tipli təlim-tərbiyə müəssisələrinin maddi təminatının, uşaq və şagirdlərin həyat şəraitinin yaxşılaşdırılması, yetim və valideyn himayəsindən məhrum uşaqların sosial müdafiəsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 29 dekabr tarixli 422 nömrəli qərarının 6-cı bəndi qüvvədən düşmüş hesab edilsin.

4. Bu qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti *Aparatının humanitar və sosial məsələlər şöbəsinə* tapşırılsın.[3]

5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 7 noyabr 2001-ci il
179

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 20 dekabr 2017-ci il tarixli **567** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 23 dekabr 2017-ci il, 284, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, II kitab, maddə 2514)**
2. 9 aprel 2020-ci il tarixli **133** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 11 aprel 2020-ci il, 67, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 480)**
3. 24 avqust 2020-ci il tarixli **305** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 avqust 2020-ci il, 169, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1122)**
4. 27 yanvar 2021-ci il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 30 yanvar 2021-ci il, 21 )**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 20 dekabr 2017-ci il tarixli **567** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 23 dekabr 2017-ci il, 284,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, II kitab, maddə 2514**) ilə 2-ci hissənin ikinci abzasına "**müəssisələrində**" sözündən sonra "**, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında (bundan sonra - AMEA)** " sözləri, "**müəssisənin**" sözündən sonra "**və ya AMEA-nın**" sözləri əlavə edilmişdir və həmin abzasda "**180 min**" sözləri "**36**" rəqəmi ilə əvəz edilmişdir.

24 avqust 2020-ci il tarixli **305** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 avqust 2020-ci il, 169 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1122**) ilə 2-ci hissənin ikinci abzasında "**və orta ixtisas**" sözləri "**, orta ixtisas və peşə**" sözləri ilə əvəz edilmişdir.

27 yanvar 2021-ci il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 yanvar 2021-ci il, 21** ) ilə 2-ci hissənin ikinci abzasında "**36**" rəqəmləri "**50**" rəqəmləri ilə və üçüncü abzasında "**27,5**" rəqəmləri "**265**" rəqəmləri ilə əvəz edilmişdir.

[2] 20 dekabr 2017-ci il tarixli **567** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 dekabr 2017-ci il, 284, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, II kitab, maddə 2514**) ilə 2-ci hissənin üçüncü abzasında "**orta, orta peşə-ixtisas və ali peşə-ixtisas təhsil müəssisələrini**" sözləri "**ümumi təhsil, orta ixtisas təhsili, ali təhsil müəssisələrini və AMEA-nı** " sözləri ilə, "**tədris müəssisəsinin**" sözləri "**təhsil müəssisəsinin və ya AMEA-nın** " sözləri ilə və "**şərti maliyyə vahidinin 25 misli miqdarında** " sözləri "**27,5 manat məbləğində**" sözləri ilə əvəz edilmişdir.

9 aprel 2020-ci il tarixli **133** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 11 aprel 2020-ci il, 67, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 480**) ilə 2-ci hissəsinin üçüncü abzasında "**yetim**" sözü "**valideynlərini itirmiş**" sözləri ilə əvəz edilmişdir.

24 avqust 2020-ci il tarixli **305** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 avqust 2020-ci il, 169 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1122**) ilə 2-ci hissənin üçüncü abzasına "**ümumi təhsil,**" sözlərindən sonra "**peşə təhsili,**" sözləri əlavə edilmişdir.

[3] 20 dekabr 2017-ci il tarixli **567** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 dekabr 2017-ci il, 284, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, II kitab, maddə 2514**) ilə 4-cü hissədə "**İşlər İdarəsinin elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinə**" sözləri "**Aparatının humanitar və sosial məsələlər şöbəsinə** " sözləri ilə əvəz edilmişdir.